


AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Noyabr 2019

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “İSLAHATLAR BİZİM ŞÜURLU SEÇİMİMİZDİR”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2019-cu il 26 noyabr tarixində
Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə
keçirilən mərasimdəki nitqindən



“Azərbaycan iqtisadiyyatı inkişaf edir. Mən gələcəkdə iqtisadi sahədə heç bir problem görmürəm. Manatın məzənnəsi artıq üç ildir ki, sabitdir. Əminəm ki, belə davam edəcək. Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız ümumi daxili məhsuldan artıq çoxdur. Xarici borcumuz azalır, yenə də azaldacağıq. Mən göstəriş vermişəm təqribən 10 faizə qədər, indi ümumi daxili məhsulun 17 faizini təşkil edir, 10 faizinə qədər getməlidir. Sənaye artır. Bu il qeyri-neft sənayemiz 15 faiz, kənd təsərrüfatı 7 faiz artıbdır. Davos Ümumdünya Forumu bizi çox yüksək yerlərə layiq görür, o cümlədən islahatların aparılması istiqamətində. İslahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqdayıq. Özü də bunu biz yox, Davos deyir. Dünya Bankı nə deyir? Deyir ki, Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır.

İslahatlar bizim şüurlu seçimimizdir. Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Bunları sosial sahəyə yönəldirik. Amma bu, hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır. Bundan sonra da daha böyük addımlar atılacaqdır”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ........ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ........ səh. 11

2019-cu ilin yanvar-oktyabr aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 1073,8 milyon manatlıq əməliyyat aparmışlar ........ səh. 15

Azexport.az portalına 2019-cu ilin yanvar-oktyabr aylarında 477,4 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ........ səh. 17

Azexport.az portalının dəstəyi ilə ixrac coğrafiyası genişlənir ........ səh. 21

Cari ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 130,7 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ........ səh. 22

Çində "Made in Azerbaijan" brendli məhsullarımıza böyük maraq göstərilmişdir ........ səh. 25

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-OKTYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **1 milyard 573 milyon** ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **222 milyon** ABŞ dolları və ya **16,4%** artmışdır

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2019-cu ilin yanvar-oktyabr ayları ərzində ölkəmizin ixracı **16,8 milyard** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq dövrünə nisbətən **836,5 milyon** ABŞ dolları və ya **5,2 faiz** artmışdır. Bu müddətdə qeyri-neft sektoru üzrə **1 milyard 573 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 10 ayında qeyri-neft sektoru üzrə ixrac **222 milyon** ABŞ dolları və ya **16,4 faiz** artmışdır. Cari ilin yanvar-oktyabr ayları ərzində Rusiyaya **533,9 milyon**, Türkiyəyə **324,6 milyon**, İsveçrəyə **147,7 milyon**, Gürcüstana **131,5 milyon** və Ukraynaya **39,8 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 10 ayında Rusiyaya qeyri-neft ixracı **14 faiz**, Türkiyəyə **10 faiz**, İsveçrəyə **29 faiz**, Gürcüstana **23 faiz** və Ukraynaya **38 faiz** artmışdır. Eyni zamanda qeyri-neft sektoru üzrə ixracın dəyərində Rusiyaya (33,9 faiz), Türkiyəyə (20,6 faiz), İsveçrəyə (9,4 faiz), Gürcüstana (8,4 faiz) və Ukraynaya (2,5 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

2019-cu ilin yanvar-oktyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında isə pomidor (147,6 milyon ABŞ dolları)

birinciliyini qorumuşdur. Bu siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 142,1 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (100,1 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Həmçinin cari ilin 10 ayında pambıq mahlıcı, elektrik enerjisi, metanol (metil spirti), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, ilkin formalı polipropilen, emal olunmamış aşqarlanmamış alüminium da qeyri-neft ixracında önə çıxmışdır.

Ümumiyyətlə, 2019-cu ilin 10 ayı ərzində meyvə-tərəvəz ixracı **455,5 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **161,2 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **106,9 milyon**, pambıq lifi ixracı **91,8 milyon**, kimya sənayesi məhsullarının ixracı **86,6 milyon**, elektrik enerjisinin ixracı **62,9 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **50,9 milyon**, pambıq ipliyi ixracı **24,5 milyon**, şəkər ixracı **24,2 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **21,4 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-oktyabr aylarında alkoqollu və alkoqolsuz içkilərin ixracı **62 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **56 faiz**, pambıq lifinin ixracı **42 faiz**, kimya sənayesi məhsullarının ixracı **36 faiz**, pambıq ipliyinin ixracı **28 faiz**, meyvə-tərəvəzin ixracı **12 faiz**, şəkər ixracı **10 faiz**, elektrik enerjisi – **6 faiz** artmışdır.

2019-cu ilin oktyabr ayında isə qeyri-neft sektoru üzrə ixrac 160 milyon ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin oktyabr ayı ilə müqayisədə 2019-cu ilin oktyabr ayında qeyri-neft sektoru üzrə ixrac 16 milyon ABŞ dolları və ya 11 faiz artmışdır. Cari ilin oktyabr ayında qeyri neft-qaz məhsulları ən çox mal Rusiyaya (68,3 milyon ABŞ dolları), İsveçrəyə (22,4 milyon ABŞ dolları), Türkiyəyə (20,6 milyon ABŞ dolları), Gürcüstana (8,3 milyon ABŞ dolları) və Ukraynaya (7 milyon ABŞ dolları) ixrac edilmişdir.

2019-cu ilin oktyabr ayında qeyri-neft sektoru üzrə ixracda xurma (27,1 milyon ABŞ dolları) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 21,4 milyon ABŞ dolları) ikinci, qabığı təmizlənmiş meşə fındığı (10,7 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşmışdır.

Bunlarla yanaşı cari ilin oktyabr ayında sair təzə meyvələr (nar və s.), metanol (metil spirti), alma, tomat(pomidor), pambıq mahlıcı, emal olunmamış aşqarlanmamış alüminium qeyri-neft sektoru üzrə ixracda mühüm paya sahib olmuşdur.

2019-cu ilin 10 ayında ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2019-CU İLİN **YANVAR-OKTYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI NOYABR



# 2019-CU İLİN **OKTYABR AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2018 İXRAC İCMALI NOYABR



# 2019-CU İLİN **YANVAR-OKTYABR AYLARINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI NOYABR



# 2019-CU İLİN **YANVAR-OKTYABR AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI NOYABR



# 2019-CU İLİN **OKTYABR AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



| | 2019 | 2018 |
|---|---|---|
| Xurma | 27,1 | 23,3 |
| Qızıl | 21,4 | 6,9 |
| Qabığı təmizlənmiş meşə fındığı | 12,2 | 13,3 |
| Sair təzə meyvələr | 10,7 | 6,7 |
| Metanol (metil spirti) | 6,2 | 5,1 |
| Alma | 6 | 7 |
| Tomat (pomidor) | 5,3 | 5,2 |
| Pambıq mahlıcı | 5 | 1,7 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 4,3 | 1,4 |
| Digər | 61,7 | 73,1 |

# 2018-Cİ İLİN VƏ 2019-CU İLİN **YANVAR-OKTYABR AYLARINDA** ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

## 2018

| Ay | Mal | Məbləğ |
|---|---|---|
| Yanvar | Qızıl | 17,2 |
| Fevral | Elektrik enerjisi | 17,7 |
| Mart | Elektrik enerjisi | 13,6 |
| Aprel | Pomidor | 18,5 |
| May | Pomidor | 54,3 |
| İyun | Pomidor | 43,2 |
| İyul | Pambıq mahlıcı | 16,4 |
| Avqust | Qızıl | 12,6 |
| Sentyabr | Fındıq ləpəsi | 12 |
| Oktyabr | Xurma | 23,3 |

## 2019

| Ay | Mal | Məbləğ |
|---|---|---|
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerjisi | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Pomidor | 24,2 |
| May | Pomidor | 54,6 |
| İyun | Pomidor | 33,8 |
| İyul | Qızıl | 14,7 |
| Avqust | Qızıl | 22,7 |
| Sentyabr | Qızıl | 13,1 |
| Oktyabr | Xurma | 27,1 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu ilin **YANVAR-OKTYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu ilin yanvar-oktyabr ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Cari ilin yanvar-oktyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, “Socar Polymer" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Nine Climate" MMC,  "Global Export Fruits" MMC, “Sun Food" MMC, "Baku Steel Company", "Azərbaycan Şəkər İstehsalat Birliyi " MMC, "Caspian enerji-2020" MMC,  "Ram Beynəlxalq Nəqliyyat və Ticarət Ltd" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, “CTS-Agro” MMC,  "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, "Azərikimya" İB, "Bakı Neft Maşinqayırma Zavodu" TASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



2019 İXRAC İCMALI NOYABR

# 2019-CU İLİN **YANVAR-OKTYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2019-CU İLİN **YANVAR-OKTYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI NOYABR

| | 2019-cu il | 2018-ci il |
| --- | --- | --- |
| ARDNŞ-nin "MARKETİNQ və İQTİSADİ ƏMƏLİYYATLAR İDARƏSİ" | 189,6 milyon | 151,5 milyon |
| "AZƏRALÜMİNİUM" MMC | 96,2 milyon | 4,1 milyon |
| "AZERGOLD" QSC | 70,3 milyon | 26,5 milyon |
| "AZƏRENERJİ" ASC | 62,8 milyon | 58,9 milyon |
| "AZƏRBAYCAN HAVA YOLLARI" QSC | 19,8 milyon | 24,1 milyon |
| "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 18,6 milyon | 0 |
| "CTS-AGRO" MMC | 5,8 milyon | 16,1 milyon |
| "AZƏRTÜTÜN AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 2 milyon | 0 |
| "AZƏRİKİMYA" İB | 2 milyon | 0 |
| "BAKI NEFT MAŞINQAYIRMA ZAVODU" TASC | 852,1 min | 292,9 min |



# 2019-CU İLİN **YANVAR-OKTYABR AYLARINDA “AZƏRKOSMOS” ASC 37,5 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2019-cu ilin yanvar-oktyabr aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın **26 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

“Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **89 faizini** təşkil etmişdir. 2019-cu ilin oktyabr ayında isə “Azərkosmos” ASC dünyanın **23 ölkəsinə 7,2 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.




2019-cu ilin yanvar-oktyabr aylarında “Azərkosmos” ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

- Fransa — 9,4 milyon $
- ABŞ — 9 milyon $
- Malayziya — 8,4 milyon $
- Birləşmiş Krallıq — 6,8 milyon $
- BƏƏ — 1,2 milyon $



## 2019-cu ilin **YANVAR-OKTYABR AYLARINDA** Azərbaycana gələn xaricilər **BANK KARTLARI VASİTƏSİ İLƏ** **1073,8 milyon** manatlıq əməliyyat aparmışlar

## **ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə **CARİ İLİN** birinci yarısında ölkəmizə **10,8 faiz** çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir

2019-cu ilin yanvar-oktyabr aylarında Azərbaycana dünyanın 192 ölkəsindən 2682,4 min və ya 2018-ci ilin yanvar-oktyabr ayları ilə müqayisədə 10,8 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 29,8 faizi Rusiya Federasiyası, 22,1 faizi Gürcüstan, 9,8 faizi Türkiyə, 8,2 faizi İran, 3,7 faizi Səudiyyə Ərəbistanı, 2,0 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla Hindistan və Ukrayna, hər birindən 1,7 faiz olmaqla İraq və Türkmənistan, 1,6 faizi İsrail, 1,5 faizi Qazaxıstan, 1,4 faizi Pakistan, 1,2 faizi Böyük Britaniya, 11,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Ölkəmizə yanvar-oktyabr aylarında gələnlərin sayında daha çox artım Türkmənistan (96,5 faiz), Hindistan (66,5 faiz), Çin (64,2 faiz), Misir (62,5 faiz), Səudiyyə Ərəbistanı (43,7 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

2019-cu ilin yanvar-oktyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 22,3 faiz artaraq 121,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 9,2 faiz artaraq 974,2 min nəfər olmuşdur.

Cari ilin oktyabr ayında ölkəmizə gələn xarici vətəndaşların sayı **24,7 faiz** artmış və onların bank kartları vasitəsi ilə apardıqları əməliyyatları **104,7 milyon** manat təşkil etmişdir. Ümumilikdə isə 2019-cu ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **1073,8 milyon** manat təşkil etmişdir.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

2019 İXRAC İCMALI NOYABR

| 2017 | 2018 | 2019 |
|---|---|---|
| Yanvar - **86,8** | Yanvar - **99,8** | Yanvar - **88,3** |
| Fevral - **72,5** | Fevral - **91,1** | Fevral - **85,3** |
| Mart - **91,1** | Mart - **105,8** | Mart - **98** |
| Aprel - **80,6** | Aprel -**109,7** | Aprel - **103,2** |
| May - **92,6** | May -**107,3** | May -**100,9** |
| İyun - **83,8** | İyun - **106,7** | İyun - **115,1** |
| İyul - **95,7** | İyul - **126,3** | İyul - **134,6** |
| Avqust - **100,8** | Avqust - **141** | Avqust - **137,4** |
| Sentyabr - **93,2** | Sentyabr - **114,6** | Sentyabr - **106,2** |
| Oktyabr- **74,4** | Oktyabr - **117** | Oktyabr - **104,7** |
| **Cəmi - 871,5** | **Cəmi - 1119,3** | **Cəmi - 1073,8** |

# 3

# AZEXPORT.AZ PORTALINA 2019-CU İLİN YANVAR-OKTYABR AYLARINDA 477,4 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

## ÖTƏN İLİN MÜVAFİQ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ portala daxil olan **ixrac sifarişləri dəyər** baxımından **10,3 faiz ARTMIŞDIR**

2019-cu ilin yanvar-oktyabr aylarında Azexport.az portalına 477,4 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-oktyabr aylarında ixrac sifarişləri 10,3 faiz artmışdır. 2019-cu ilin oktyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 41 milyon ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq ayı ilə müqayisədə 78 faiz artmışdır. 2019-cu ilin yanvar-oktyabr aylarında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (11,9%), Türkiyə (6,5%), İngiltərə (5,4%), Hindistan (5,3%) və ABŞ (5,3%) qərarlaşmışdır.

Cari ilin oktyabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq lifi və pambıq toxumu, fındıq ləpəsi, toyuq əti və yumurtası, sarımsaq, biyan kökü, tütün, qənnadı məhsulu, şərab, mebel dəsti, çay, tikinti materialı, soğan, mühərrik yağı, alma, kosmetik vasitə, nar şirəsi, qurudulmuş meyvə, qızıl gül və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 31 oktyabr tarixinə kimi (34 ay ərzində) Azexport.az portalına dünyanın **138 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **1 milyard 466,5 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**




Yanvar - **91,7**
Fevral - **53,9**
Mart - **32,8**
Aprel - **50,9**
May - **32,5**
İyun - **41,3**
İyul - **43,5**
Avqust - **52,7**
Sentyabr - **37,1**
Oktyabr - **41**

2017-ci il ərzində
**CƏMİ - 475**

2018-ci il üzrə
**CƏMİ - 514,1**

2019-cu il
**CƏMİ - 477,4**



Son **34 ay** ərzindəki sifarişlərin cəmi - **1 466,5**

# 2019-CU İLİN **OKTYABR AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2019 İXRAC İCMALI NOYABR

**Pambıq lifi və pambıq toxumu**



**Fındıq ləpəsi**



**Tütün**



**Toyuq əti və yumurtası**



**Sarımsaq**



**Biyan kökü**



**Qənnadı məhsulu**



**Şərab**



**Mebel dəsti**



**Çay**



**Tikinti materialı**




**Soğan**



**Mühərrik yağı**



**Alma**



**Kosmetik vasitə**



# 2019-CU İLİN **YANVAR-OKTYABR AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ



4

# AZEXPORT.AZ PORTALININ DƏSTƏYİ İLƏ İXRAC COĞRAFİYASI GENİŞLƏNİR

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu Azexport.az portalı Teymur Əhmədov adına "Aznar" Qapalı Səhmdar Cəmiyyətinə 2019-2020-ci illər üzrə sərbəst satış sertifikatı təqdim etmişdir.

Azexport.az portalının meneceri A.Qədəşovun bildirdiyinə görə, portal əməkdaşlıq etdiyi digər şirkətlər kimi "Aznar" QSC-yə də "Made in Azerbaijan" brendi adı altında istehsal olunan spirtli və spirtsiz içkilərin ixrac coğrafiyasının genişləndirilməsi istiqamətindəki fəaliyyətinə töhfə verir: "Azexport.az internet portalı tərəfindən "Aznar" QSC-yə 2019-2020-ci illər üzrə yeni sərbəst satış sertifikatı təqdim olunmuşdur. Təqdim olunan sertifikatlar sayəsində ixracatçı şirkət Ərəb və Okeaniya Ölkələrinə məhsul ixracını davam etdirəcək".

Qeyd edək ki, 2018-2019-cu illər üzrə 7 yerli şirkətə "Made in Azerbaijan" brendi adı altında istehsal etdikləri məhsulların ixrac üçün 196 sertifikat təqdim olunmuşdur.

Məlumat üçün bildirək ki, sərbəst satış sertifikatı Azərbaycanda yalnız Azexport.az portalı tərəfindən təqdim olunur.



# 5

# CARİ İLDƏ “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 130,7 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

2019-cu ilin noyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi tərəfindən fiziki və hüquqi şəxslərə ixracla bağlı müvafiq sertifikatların verilməsi prosesi davam etmişdir. Qeyd edək ki, “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin xidmətlərindən "AzerGold" QSC, Teymur Əhmədov adına "AZNAR" QSC, "Baku Steel Company" MMC, "Sadoil" MMC, " “Atena" MMC, "Azərtütün" MMC, "Gilan Tekstil Park" MMC kimi şirkətlərlə yanaşı, fiziki şəxslərdə istifadə etmişdirlər. Nəticədə cari ilin noyabr ayı ərzində Mərkəz vasitəsi ilə verilən ixrac sənədlərinə əsasən **12,2 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Ümumilikdə isə 2019-cu ilin yanvar-noyabr aylarında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən **130,7 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir.

Cari ilin noyabr ayı ərzində ixracatçılara əsasən tütün, biyan kökü, nar, pendir, qoyun bağırsağı, zəli, ayaqqabı altlıqları, meyvə şirələri, polad armatur yayması, şərab, pambıq tullantısı, fındıq, qiymətli metallar, narşərab və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Gürcüstan, Ukrayna, ABŞ, İspaniya, Belarus, Türkiyə, İsveçrə, Kanada, Çin daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **150 milyon** ABŞ dolları olmuşdur.



# 2019-CU İLİN YANVAR - NOYABR AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)



# 2019-CU İLİN NOYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ



RUSİYA **23,0%**

GÜRCÜSTAN **15,0%**

UKRAYNA **13,0%**

ABŞ **6,0%**

İSPANİYA **4,0%**




BELARUS **4,0%**

TÜRKİYƏ **2,0%**

İSVEÇRƏ **2,0%**

KANADA **2,0%**

DİGƏR **29,0%**

6

# ÇİNDƏ "MADE İN AZERBAİJAN" BRENDLİ MƏHSULLARIMIZA BÖYÜK MARAQ GÖSTƏRİLMİŞDİR

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan məhsulları 12-14 noyabr tarixlərində Çinin Şanxay şəhərində keçirilən "Food and Hotel China 2019" Beynəlxalq Sərgisində təqdim olunmuşdur. Sərgidəki "Made in Azerbaijan" vahid ölkə stendində 14 Azərbaycan şirkətinin şərab və spirtli içkiləri, meyvə şirələri, konservləşdirilmiş məhsulları, qənnadı məmulatları, qurudulmuş meyvələri nümayiş etdirilmişdir. Çində "Made in Azerbaijan" brendli məhsullarımıza böyük maraq göstərilmişdir.

Bununla yanaşı 5-10 noyabr tarixlərində keçirilən II Çin Beynəlxalq İdxal Sərgisində də 26 Azərbaycan şirkətinin məhsulları nümayiş olunmuşdur. Bu sərgi çərçivəsində Azərbaycan sahibkarları xarici həmkarları ilə ixraca dair müzakirələr aparmış, distribütorluq və alqı-satqı müqavilələri imzalamışlar.



# "QİDA ZƏNCİRİNİN MƏRHƏLƏLƏRİNDƏ BEYNƏLXALQ STANDARTLARIN TƏTBİQİ"

## mövzusunda təlim keçiriləcəkdir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi və "Food Cert" MMC-nin birgə təşkilatçılığı ilə "Qida zəncirinin mərhələlərində beynəlxalq standartların tətbiqi" mövzusunda təlim keçiriləcəkdir. Sahibkarlar üçün nəzərdə tutulan maarifləndirici təlim "Food Cert MMC"-nin nümayəndəsi tərəfindən aparılacaqdır.

Təlim zamanı HAACP, BRC, ISO 22000:2018 kimi qida təhlükəsizliyi idarəetmə sistemində ən çox tətbiq olunan beynəlxalq standartların tətbiqi qaydaları, tətbiqin üstünlükləri, ixrac prosesində inteqrasiyası barədə geniş məlumat veriləcəkdir. Həmçinin Avropa Birliyində ixrac tələbləri, sertifikatlaşdırma, qablaşdırma və etiketlənməyə aid tələblər, bu sahədə innovasiyalar müzakirə olunacaqdır.

Qeyd edək ki, əhalinin keyfiyyətli və təhlükəsiz ərzaq məhsullarına tələbatının davamlı təmin edilməsi, istehlakçıların sağlamlığının qorunması, o cümlədən qida sahəsində fəaliyyət göstərən sahibkarların istehsal və idxal-ixrac həcminin artırılması istiqamətində beynəlxalq standartların tətbiqi zəruri xarakter daşıyır.

Ölkəmizdə qida təhlükəsizliyi sahəsində aparılan islahatlar nəticəsində bu sahəyə aid norma və qaydaların mövcud beynəlxalq tələblərə uyğunlaşdırılmasını nəzərə alaraq, sahibkar və ixracatçıları "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən həyata keçirilən tədbirə dəvət olunur.

Məlumat üçün qeyd edək ki, "Qida zəncirinin mərhələlərində beynəlxalq standartların tətbiqi"" mövzusunda təlim 5 dekabr 2019-cu il, saat 10:00-da İİTKM-ın inzibati binasında (Ünvan: Bakı ş, Yasamal r, L.Landau küçəsi 16) təşkil olunacaqdır.

Tədbirdə iştirak etmək istəyən şəxslər təqdim olunan link vasitəsi ilə qeydiyyatdan keçə bilərlər:

http://iqtisadiislahat.org/frontend/web/registration/



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


